**Azərbaycan Universitetinin 14.09.2021-ci il tarixli, 01 saylı**

**Elmi Şurasının qərarı ilə təsdiq edilmişdir.**

# MAGİSTR DİSSERTASİYASININ
## yazılışı, metodikası, tərtibi və müdafiəsi qaydaları

**Təsdiq edirəm: _____________ Rektor S.N.Əliyeva**

**Məsul şəxs:________________ Magistratura və doktorantura**

**şöbəsinin müdiri: N.Y.Quliyeva**

**Razılaşdırılıb: ______________ Baş hüquqşünas P.S.Qurbanov**

**Bakı-2021**

**MÜNDƏRİCAT**

1. MAGİSTR DİSSERTASİYA MÖVZUSUNUN SEÇİLMƏSİ....................................3
2. DİSSERTASİYANIN STRUKTURU VƏ PLANLAŞDIRILMASI..............................3
3. MAGİSTR DİSSERTASİYASININ TƏRTİBİ VƏ ƏSAS TƏLƏBLƏR ......................6
4. MAGİSTR DİSSERTASİYASININ REFERATININ TƏRTİBAT QAYDALARI ........7
5. MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏYƏ HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ....................................................................................................8
ƏLAVƏLƏR...........................................................................................................10

## 1. MAGİSTR DİSSERTASİYA MÖVZUSUNUN SEÇİLMƏSİ

Ali təhsilin magistratura səviyyəsi üzrə yekun mərhələsi magistrlik dissertasiyasının müdafiəsidir. Magistrlik dissertasiyası elmi rəhbərin rəhbərliyi altında magistrantın müstəqil yerinə yetirdiyi elmi-tədqiqat (yaradıcılıq) işidir. Magistrlik dissertasiyasının hazırlanması və müvəffəqiyyətlə müdafiəsi magistr hazırlığı proqramının yerinə yetirilməsinin məcburi şərtidir. Magistrlik dissertasiyasının müdafiəsinə tədris planında nəzərdə tutulmuş bütün fənləri tam mənimsəyən və müvəffəq qiymət alanlar buraxılırlar.

Mövzunun düzgün müəyyənləşdirilməsi dissertasiya işinin uğurla tamamlanmasında həlledici rol oynayır. Mövzunun ifadəsindən tədqiqatın əsas məzmunu və istiqaməti aydın şəkildə görünməlidir.

Magistrant, dissertasiya mövzusunu kafedra tərəfindən təklif olunan Magistr dissertasiyası mövzularının siyahısından seçə və ya siyahıda olmayan mövzunu da təklif edə bilər. Mövzu seçimində çətinlik yarandıqda magistrant fənn müəllimlərinə və ya ixtisas kafedrasına müraciət edə bilər.

Mövzu seçilərkən onun aktuallığına xüsusi diqqət yetirilməli, eyni zamanda mövzunun elmi ədəbiyyatda əks olunma səviyyəsi və tədqiqatçılar tərəfindən işlənmə dərəcəsi nəzərə alınmalıdır. Mövzunun konkret, aktual və elmi baxımdan əhəmiyyətli olması əsas meyarlardan biri kimi qiymətləndirilməlidir.

Dissertasiya mövzusunun seçilməsi magistr hazırlığının ilkin mərhələsində - birinci semestrdə (**sentyabr–dekabr aylarında**) həyata keçirilir. Kafedralar magistr dissertasiya mövzularını əvvəlcədən formalaşdırmalı, onları mütəmadi yeniləməli, kafedra iclaslarında müzakirə etməlidir. Mövzular müəyyən edilərkən elm və təhsilin müasir və perspektiv inkişaf istiqamətləri, təhsil qarşısında duran aktual vəzifələr, təhsil islahatları, dövlətin təhsil siyasəti, həmçinin kafedranın elmi-tədqiqat fəaliyyətinin əsas istiqamətləri nəzərə alınmalı, magistrantlar isə yüksək ixtisaslı elmi rəhbərlərlə təmin olunmalıdır. Magistrantlara təyin olunan dissertasiya mövzuları Fakültə Elmi Şuralarında rəsmiləşdirilir.

Mövzunu seçmiş magistrant mövzunun mahiyyətini, əsas ideyasını, məqsəd və vəzifələrini özü üçün tam şəkildə dəqiqləşdirməlidir. Magistrant mövzunun aktuallığı, elmi yeniliyi, praktik əhəmiyyəti və pedaqoji ədəbiyyatda işlənmə səviyyəsi barədə ardıcıl təhlil aparmalı və müvafiq elmi fəaliyyət göstərməlidir.

## 2. DİSSERTASİYANIN STRUKTURU VƏ PLANLAŞDIRILMASI

Dissertasiyanın strukturu dedikdə onun ilk səhifəsindən son səhifəsinədək tədqiqatın əsas hissə, bölmə, fəsil, yarımfəsil və bəndlərinin ardıcıl və sistemli şəkildə təşkili nəzərdə tutulur.

Bu quruluşa eyni zamanda tədqiqatın nəticələri, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələr də daxildir.

Magistr dissertasiyasının strukturunda əsasən aşağıdakı ardıcıllıq nəzərə alınmalıdır:

- Üz vərəqi (Titul səhifəsi)
- Mündəricat
- Giriş
- Dissertasiyanın əsas məzmunu (fəsil, yarımfəsil, paraqraf, bənd)
- Nəticə
- İstifadə edilmiş ədəbiyyat
- Əlavələr
- İxtisarların və şərti işarələrin siyahısı (dissertasiyada olduqda).

**2.1. Üz vərəqi** (Titul səhifəsi) dissertasiyanın ilk səhifəsi hesab olunur və **Əlavə 2**- yə uyğun tərtib edilir.

**2.2. Mündəricat** - Üz vərəqindən sonra ikinci səhifədə ortada (artıq vərəqin yuxarı sağ küncündə 2 rəqəmi yazılır və səhifələr ardıcıl nömrələnir) MÜNDƏRİCAT yazılır. Mündəricatda dissertasiyanın struktur bölmələrinin adları və onların başlanğıc səhifəsinin nömrələri əks olunur.

**2.3. Giriş -** Girişdə "Giriş" sözü başlıq kimi göstərilir və nömrələnmir. Dissertasiyanın girişində aşağıda qeyd olunan yarımbaşlıqlar tünd qara rənglə yazılmalı və abzasdan başlanmalıdır:

- Mövzunun aktuallığı və işlənmə dərəcəsi;
- Tədqiqat mövzusunun öyrənilmə dərəcəsi.
- Tədqiqat işinin məqsəd və vəzifələri.
- Tədqiqat işinin predmeti və obyekti.
- Tədqiqat işinin metodu.
- Tədqiqat işinin elmi və praktiki əhəmiyyəti
- Tədqiqat işinin metod və metodologiyası
- Tədqiqatın aprobasiyası.
- Tədqiqat işinin strukturu və həcmi.
- Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti;

Dissertasiyanın "Giriş"ində ilk növbədə *Mövzunun aktuallığı* əsaslandırılır. Sonra tədqiqatın *məqsəd və vəzifələri, obyekti, predmeti, elmi yeniliyi, praktik əhəmiyyəti, daha sonra da metodları, metodologiyası, aprobasiyası* göstərilir.

- Dissertasiyanın aktuallağının izahında mövzunun əhəmiyyəti, vacibliyi əsaslandırılır;
- Mövzunun məqsədi və məqsəddən irəli gələn tədqiqatın vəzifələri şərh olunur;
- Tədqiqatın predmeti (hansı ki, tədqiqaqatın mövzusunu müəyyənləşdirir) və obyekti (hansı ki, öyrənilən, proses, fakt və ya hadisədir) dəqiq göstərilir;
- Mövzu ilə bağlı yazılmış əsərlərə yığcam şərh də verilir, onlara münasibət bildirilir.

Dissertasiyanın "Giriş"i çox əhəmiyyətli və məsuliyyətli hissədir. Belə ki, dissertasiyanın girişindən tədqiqatın məzmunu, əhəmiyyəti, səviyyəsi haqqında müəyyən təsəvvürə malik olmaq olur. Dissertasiyanın "Giriş" hissəsi Minumum 4 səhifə olmalıdır.

**2.4. Dissertasiyanın əsas məzmunu (fəsil, paraqraf, yarımfəsil, bənd)** Dissertasiyanın əsas məzmunu fəsillərə və paraqraflara bölünür. Dissertasiyanın paraqrafları bəndlərə də bölünə bilər.

- Fəsillərin başlıqları rum rəqəmi ilə göstərilməklə böyük hərflərlə yazılmalıdır. Hər fəsil yeni səhifədən başlayır. Məs: I Fəsil
- Yarımfəsillərin başlıqları ərəb rəqəmləri ilə göstərilməklə kiçik hərflərlə yazılır (Baş hərflər istisna olmaqla). Məsələn: 1. 1. - birinci fəslin birinci yarımfəsli.
- Yarım fəslin bəndi isə belə göstərilir. Məsələn: 2. 1. 2. - ikinci fəslin, birinci yarımfəslinin ikinci bəndi
- Fəsillərin adları mətnə simmetrik şəkildə, böyük hərflərlə, tünd qara rənglə, paraqrafların adları isə abzasdan sətri hərflərlə (birinci hərf istisna olmaqla) tünd qara rənglə yazılmalıdır;
- Fəsillərin adlarının yazılışında sözlərin hecalara bölünərək sətirdən-sətrə keçirilməsinə yol verilmir. Fəsil və paraqrafların adlarının altından xətt çəkilmir və sonunda nöqtə qoyulmur. Hər fəslin 2-dən az olmayan yarım fəsilləri olmalıdır;
- Fəsil və paraqrafların adları iki və ya daha çox cümlədən ibarət olduqda, onların arasında nöqtə qoyulmalıdır;
- Dissertasiyanın birinci fəslindən tədqiqatın ümumi cəhətlərini, əsas istiqamətlərini aydın əks etdirilməlidir;
- Dissertasiyanın ikinci fəslində isə artıq problemin konkret həlli, işin əsas məzmunu, hətta onun təkmilləşdirilməsi yolları da göstərilir. Bu fəsil məzmunca daha üstün təhlil xarakteri daşıyır, konkret fakt, hadisə və təcrübələr əsasında aparılırmış araşdırmaların, eləcə də eksperiment və müşahidələrin nəticələri təqdim edilir.

**2.3. Nəticə -** Dissertasiya işi "Nəticə" ilə sona çatır.

- Nəticədə "Nəticə" sözü başlıq kimi göstərilir və nömrələnmir.
- Bu hissədə tədqiqat yekunlaşdırılır, aparılmış tədqiqat işlərinin nəticələri göstərilməlidir;
- Əsas elmi yeniliklər göstərilməklə onların əhəmiyyəti əsaslandırılmalıdır;
- Müəllifin tədqiqat işinə gətirdiyi yeniliklər qeyd edilir. Problemin gələcəkdə daha da təkmilləşdirilməsi, yaxşılaşdırılması üçün təkliflər verilməlidir.

Yaxşı olar ki, nəticə və təkliflər bəndlərlə və yaxud tezis şəklində konkret olaraq göstərilsin.

"Nəticə" bölməsindən sonra istifadə olunmuş ədəbiyyatın siyahısı verilir.

**2.6. İstifadə edilmiş ədəbiyyat siyahısı -** Dissertasiyanın ədəbiyyat siyahısı müəllifin tədqiqat prosesində istifadə etdiyi bir açardır. İstifadə edilmiş ədəbiyyat siyahısı müəyyən mənada tədqiqatın elmi mədəniyyəti, etikası deməkdir. Ədəbiyyat siyahısından dissertasiyanın səviyyəsi, tədqiqatçının problemlə bağlı məlumatlılığı özünü göstərir.

- İstifadə edilmiş ədəbiyyat siyahısında "İstifadə edilmiş ədəbiyyat siyahısı" sözləri başlıq kimi göstərilir və nömrələnmir;
- İstifadə edilmiş ədəbiyyat siyahısında əvvəlcə Azərbaycan dilində, sonra isə türk, rus, ingilis və s. dillərdə olan mənbələr hər bir dilə uyğun əlifba sırası ilə düzülür və ardıcıl olaraq nömrələnir;
- Ədəbiyyat siyahısı real olmalıdır. Əsas istifadə edilmiş ədəbiyyat siyahıya daxil edilir;
- Siyahıda göstərilmiş ədəbiyyat neçənci nömrədə göstərilmişsə dissertasiyanın mətnində istinad edilmiş ədəbiyyat da həmin nömrəyə uyğun olur;
- Dissertasiyanın yazılışında mütaliə edilmiş ədəbiyyat da ədəbiyyat siyahısına daxil ola bilər;
- İstifadə edilmiş ədəbiyyat siyahısında, əsasən son 10 ildə nəşr edilmiş ədəbiyyatlar öz əksini tapmalıdır;
- Biblioqrafik məlumatlar əlifba sırası ilə müəllifin soyadı, adı, atasının adı və ya nəşrin adı ilə verilir;
- Dissertasiyada istifadə olunan mənbələrin biblioqrafik təsvirində aşağıdakı şərti işarələrdən istifadə edilir: . nöqtə , vergül - defis – tire : qoşa nöqtə / çəpəki xətt // qoşa çəpəki xətt ( ) mötərizə [] kvadrat mötərizə.

**2.7. Əlavələr -** Dissertasiyanın "Əlavələr"i ədəbiyyat siyahısından sonra verilir. Dissertasiyanın məzmununa ehtiyac olduqda əlavələr verilir.

- Əlavələrdə "Əlavələr" sözü başlıq kimi göstərilir və nömrələnmir;
- Əlavələr ümumi işin davamı kimi səhifələnməlidir;
- Dissertasiyanın mətnində bütün əlavələrə istinad edilməlidir;
- Hər bir əlavə yeni səhifədə verilməli və vərəqin üst sağ tərəfində "Əlavə 1" , "Əlavə 2" və s. yazılır;
- "Əlavələr" çox olduqda onu ayrıca qovluqda və ya cildlənmiş şəkildə "Dissertasiyaya əlavələr" adı ilə də təqdim edilməlidir;
- Dissertasiyanın mətnində bütün əlavələrə istinad edilməlidir.

Əlavələr müxtəlif ola bilər. Bu hər hansı bir pedaqoji sənədin üzü, hesabat materialının bir hissəsi, nümunəvi plan, proqram və yaxud bir protokol və ya təlimat və s. ola bilər.

Əlavələr dissertasiyanın əsas mətninin bir hissəsi-tərkib hissəsidir ki, onun əlavə olaraq əhəmiyyəti vardır. Əlavələr dissertasiyanın məzmununu tamamlayır. Əlavələr dissertasiyanın son səhifələridir

**2.8. Şəkillər, qrafik və cədvəllər**

- Dissertasiyanın mətnində istifadə edilən şəkil, cədvəl və qrafiklər onlara ilk dəfə istinad edilən yerdə, növbəti səhifədə və ya əlavələrdə verilməlidir;

- Şəkil, cədvəl və qrafiklər elə yerləşdirilməlidir ki, dissertasiyanı çevirmədən və ya yalnız saat əqrəbi istiqamətində döndərməklə onlara rahat baxmaq mümkün olsun;
- Şəkil, cədvəl və qrafiklər ardıcıl qaydada nömrələnməlidir;
- Dissertasiyada müvafiq növdən yalnız bir ədəd olduqda, o nömrələnmir, yalnız "Şəkil", "Cədvəl" və ya "Qrafik" sözü və adı göstərilir;
- "Şəkil", "Cədvəl" və ya "Qrafik" sözü, onun nömrəsi və adı müvafiq obyektin alt hissəsində yazılmalıdır;
- "Şəkil", "Cədvəl" və ya "Qrafik" sözü və adı sətri hərflərlə (birinci hərf istisna olmaqla), tünd qara rəngdə, altından xətt çəkilmədən yazılmalıdır. Nömrələmə isə fəsil, paraqraf və obyektin ardıcıl nömrələrindən ibarət olmalı və bir-birindən nöqtə ilə ayrılmalıdır. Məsələn: Şəkil 1.2.3 – birinci fəslin ikinci paraqrafının üçüncü şəkli;
- Dissertasiyaya daxil edilən şəkil, cədvəl və qrafiklər keyfiyyətli olmalıdır;
- Dissertasiyada kompüter qrafikası vasitəsilə hazırlanmış və orijinal şəkil, cədvəl və qrafiklərdən istifadə edilməlidir;
- A4 formatından kiçik ölçülü şəkil, cədvəl və qrafiklər standart ağ vərəqə yapışdırılmalıdır;
- Dissertasiyanın mətnində təqdim olunan hər bir şəkil, cədvəl və qrafikə mütləq şəkildə istinad edilməlidir.

### 2.9. İxtisarlar və şərti işarələr

- Dissertasiyada geniş yayılmamış ixtisarlardan, şərti işarələrdən, spesifik terminlərdən, yeni simvollardan və digər analoji ifadələrdən istifadə edildikdə, onlar üzrə müvafiq izahatlardan ibarət siyahı tərtib edilməlidir;
- Göstərilən siyahı sütun formasında tərtib olunur; sütunun sol tərəfində ixtisarlar, şərti işarələr, spesifik terminlər və simvollar əlifba sırası ilə, sütunun sağ tərəfində isə onların dəqiq açılışı və mənası göstərilməlidir;
- Dissertasiyada istifadə edilən xüsusi ixtisarlar, şərti işarələr, spesifik terminlər və simvollar üç dəfədən az təkrarlandıqda, müvafiq siyahı tərtib edilmir; bu halda onların dəqiq açılışı və mənası mətndə ilk dəfə istifadə edildiyi yerdə verilməlidir.

## 3. MAGİSTR DİSSERTASİYASININ TƏRTİBİ VƏ ƏSAS TƏLƏBLƏR

- Giriş hissəsi dissertasiyanın ümumi həcminə uyğun olaraq təxminən 4–5 səhifə həcmində təşkil etməli və burada tədqiqatın məqsəd və vəzifələri, aktuallığı, elmi yeniliyi, praktik əhəmiyyəti, metod və metodologiyası, elmi ədəbiyyatda qoyuluşu və digər məsələlər şərh edilməlidir;
- Əsas hissə fəsillərdən, yarımfəsillərdən və bəndlərdən ibarət olmalıdır. Dissertasiya bir qayda olarq iki və ya üç fəsli əhatə etməli və hər fəsil ən azı iki yarımfəsildən təşkil olunmalıdır. Fəsillər arasında həcm baxımından mütənasibliyin qorunmasına diqqət yetirilməlidir;
- Nəticə hissəsi 3–4 səhifə həcmində tərtib edilməli, burada əldə edilmiş nəticələr konkret şəkildə təqdim olunmalı, zəruri hallarda təkliflər irəli sürülməlidir;
- İstifadə edilmiş ədəbiyyat siyahısı real və tədqiqatın məzmununa uyğun olmalı, əlavə oxunmuş mənbələr və internet resursları da bu siyahıya daxil edilməlidir;
- "Əlavələr" bölməsində mövzu ilə bağlı cədvəllər, sənəd nümunələri, təlimatlar və digər materiallar təqdim oluna bilər.
- Dissertasiyanın mətni A4 formatlı (210×297 mm) ağ kağızın bir üzündə Times New Roman, Times Roman AzLat və ya Alk-Az-Tmsl şriftlərindən biri ilə, 14 ölçüdə, sətirlərarası 1,5 interval olmaqla kompüterdə yığılmalı və cildlənməlidir;
- Mətn aşağıdakı boş sahə ölçüləri gözlənilməklə çap edilməlidir:
    - sol tərəfdən – 30 mm,

- sağ tərəfdən – 10 mm,
- yuxarıdan və aşağıdan – 20 mm.

- Sətirdəki işarələrin sayı 60–65-dən az olmamalı, səhifədə isə 29–31 sətir yerləşdirilməlidir;
- Fəsil və yarımfəsil başlıqları ilə əsas mətn arasındakı məsafə 2,5 interval təşkil etməlidir;
- Dissertasiyada bütün xətlər, hərflər, rəqəmlər və işarələr aydın və eyni tündlükdə olmalıdır;
- Mətn kompüterdə yığıldıqdan sonra əlavəyə ehtiyac yarandıqda 2–3 söz və ya şərti işarə qara qələmlə səliqəli şəkildə əlavə edilə bilər. Çapdan sonra hər səhifədə kompüter səhvlərinə görə edilən düzəlişlərin sayı ikidən artıq olmamalıdır;
- Dissertasiyanın yazılışı zamanı iddiaçı istifadə etdiyi bütün materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətndə istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) göstərilməlidir. Məsələn: [54, s.162], [155, c.2, s.82–83], [54, s.162; s.23] və s.
- "İxtisarlar siyahısı" sütun formasında tərtib edilir: sol sütunda ixtisarlar əlifba sırası ilə, sağ sütunda isə onların tam açıqlaması verilir. Terminlər, ixtisarlar və simvollar üç dəfədən az istifadə edildikdə, siyahı tərtib edilmir;
- Dissertasiya işində sistemli rəqəmsal materiallar, bir qayda olaraq, cədvəl formasında tərtib edilməlidir. Hər bir cədvəl müvafiq başlıqla təmin olunmalıdır. Sətir və sütunlarının sayı çox olan cədvəllər hissələrə bölünərək bir neçə səhifədə təqdim edilə bilər;
- Cədvəl iki və ya daha çox səhifəni əhatə etdikdə, "Cədvəl" sözü və onun nömrəsi yalnız birinci səhifənin sağ yuxarı hissəsində göstərilir, növbəti səhifələrdə müvafiq yerlərdə "ardı" sözü yazılır. Bir neçə cədvəl olduqda isə "ardı" sözünün qarşısında cədvəlin nömrəsi qeyd edilir (məsələn, cədvəl 1.2-nin ardı).
- Cədvəlin adı və nömrəsi cədvəlin yuxarı hissəsində yerləşdirilməli, nömrə isə sağ küncdə çap edilməlidir. Cədvəllərin sütun və sətir başlıqları, eləcə də daxilindəki məlumatlar üçün şrift ölçüsü 12, sətirlərarası məsafə isə 1 interval olmalıdır.
- Dissertasiyanın mətnində təqdim olunan bütün məlumatlar aydın və oxunaqlı olmalıdır.
- Dissertasiyanın ümumi həcmi 70–75 səhifə təşkil etməlidir.
- Dissertasiya işi tikilərək qalın üz qabığında təqdim edilməlidir.

## 4. MAGİSTR DİSSERTASİYASININ REFERATININ TƏRTİBAT QAYDALARI

Müəllif magistr dissertasiyasının məzmunu əks etdirən referat hazırlamalıdır.

- Referatın həcmi 5-6 səhifəyə qədər ola bilər. (Referat A4 formatlı vərəqdə, sol tərəfdən 30 mm, sağ tərəfdən 10 mm, yuxarıdan və aşağıdan 20 mm boş sahə saxlanılmaqla, Times New Roman şrifti ilə, 14 ölçüdə, sətirlərarası 1,5 interval olmaqla yazılmalıdır)
- Referatın titul səhifəsi dissertasiyada olduğu kimidir, yalnız "Dissertasiya" sözü əvəzinə "REFERAT" sözü yazılmalıdır (**Əlavə 2**).
- Üz vərəqinin arxa tərəfində işin yerinə yetirildiyi kafedranın adı, elmi rəhbərin elmi dərəcəsi, elmi adı, atasının adı, soyadı göstərilməlidir;
- Dissertasiyaya rəy vermiş rəyçinin elmi titulları, adı,atasının adı, soyadı, göstərilir.
- Dissertasiyanın müdafiə vaxtı və yeri göstərilməlidir;
- Referatın giriş hissəsi təxminən 2–3 səhifə həcmində olmalı və burada mövzunun aktuallığı, qoyulmuş problem və onun öyrənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, istifadə olunan metodlar, tədqiqatın informasiya bazası və əhatə etdiyi dövr, tədqiqatın məhdudiyyətləri, əldə edilmiş əsas nəticələr, nəticələrin elmi yeniliyi, tətbiq sahələri və nəzəri-praktiki əhəmiyyəti öz əksini tapmalıdır;

- Referatda mövzu ilə bağlı müəllifin çap olunmuş məqalələri, tezisləri, tələbə elmi cəmiyyətində, elmi konfranslarda çıxışları, təltifləri də göstərilməlidir;
- Referatda dissertasiyanın əsas ideyası, fəsillər haqqında yığcam şərh, tədqiqatın nəticələri, müəllifin təklifləri, yenilikləri konkret olaraq öz əksini tapmalıdır (Zəruri hallarda mövzu ilə bağlı yazılmış elmi əsərlərə də qısa icmal verilə bilər)

## 5. MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏYƏ HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Magistr dissertasiyasının müdafiəsi bir qayda olaraq tədris ilinin sonunda təsdiq edilmiş qrafik əsasında keçirilir.

Tamamlanmış dissertasiya cildləndikdən və referat hazırlandıqdan sonra magistrant onu elmi rəhbərə təqdim edir. Elmi rəhbər onu öz rəyi ilə birlikdə ixtisas kafedrasına təqdim edir. Kafedra dissertasiyanı tədqiqat işinin tematikasına uyğun olaraq elmi dərəcəsi olan mütəxəssisə rəsmi rəyə göndərir. Rəsmi rəy də alındıqdan sonra dissertasiya kafedrada müzakirə olunur, magistrant kafedra qarşısında ilkin müdafiə etmiş olur. Kafedranın müzakirəsindən sonra dissertasiya, referat, rəylər, fərdi plan və kafedranın müzakirə protokolundan çıxarış dekanlığa təqdim edilir. Dekanlıq kafedra tərəfindən təqdim edilmiş materialların əsasında magistrantın müdafiəyə buraxılması məsələsini həll edir.

Müdafiəyə buraxılmış magistrantın aşağıdakı sənədləri dekanlıq tərəfindən İxtisaslaşdırılmış Şuranın Katibinə təqdim edilir.

1. Magistr dissertasiyası (cildlənmiş) – 1 nüsxə
2. Referat – 1 nüsxə
3. Elmi rəhbərin rəyi
4. Rəsmi rəyçinin rəyi
5. İxtisas kafedrasının müzakirə protokolundan çıxarışı
6. Magistrantın fərdi planı
7. Magistrantın dissertasiya mövzusu ilə bağlı çap edilmiş məqalə və tezislərin çap forması
8. Dissertasiyanın elektron forması (diskdə)

Katib sənədləri yoxlayır, qeydlərini edir, sistemləşdirir və İxtisaslaşdırılmış Şuraya təqdim edir.

Dissertasiyanın müdafiəsi təhsil müəssisəsinin Rektorun əmri ilə yaradılmış İxtisaslaşdırılmış Şuranın iclasında aparılır. İxtisaslaşdırılmış Şuraların yaradılma qaydaları Təhsil Nazirliyi tərəfindən müəyyən edilir və tədris müəssisəsinin rektoru tərəfindən rəsmiləşdirilir.

Müəyyənləşdirilmiş qrafik əsasında magistrant İxtisaslaşdırılmış Şuranın qarşısında müdafiə edir. Hər magistrantın İxtisaslaşdırılmış Şura qarşısında müdafiəsinə **30 dəqiqə** vaxt ayrılır. Bu vaxtın **15 dəqiqəsi** magistrantın çıxışına ayrılır.

Magistrantın müdafiə zamani çıxışının quruluşu üç hissədən ibarətdir:

**Birinci hissə** - dissertasiyanın giriş hissəsində olan materiallardır ki, magistrant onu yığcam şəkildə komissiya üzvlərinə danışır (Aktuallıq, elmi yenilik, praktik əhəmiyyət, predmet, obyekt, metodlar, metodologiya, mənbələr, aprobasiya və s.)

**İkinci hissə** - dissertasiyanın fəsillərinin ardıcıllıqla şərhi və izahıdır. Bu zaman hər fəsildə yerinə yetirilmiş işlər və alınan nəticələr şərh olunur. Magistrant fikirlərini əsaslandırmaq üçün plakatlardan, sxem və cədvəllərdən, diaqramlardan texniki vasitələrdən istifadə edir.

**Üçüncü hissə** - dissertasiyanın nəticələrinə həsr olunur. Burada alınmış nəticələr, yekunlaşdırılmış fikirlər, təkliflər, istifadə edilmiş əsas mənbələr komissiya üzvlərinə çatdırılır.

Bundan sonra rəylər oxunur, iradlar deyilir. Magistrant qeyd edilən iradlara öz münasibətini bildirə bilər və ya onlarla razılaşa bilər.

Magistrantın elmi rəhbəri və rəsmi rəyçi müdafiədə iştirak edə bilər.

İxtisaslaşdırılmış Şuranın qapanış iclasında sədr şura üzvləri ilə birlikdə sadə açıq səsvermə yolu ilə magistrantın müdafiəsini qiymətləndirir. Sonra şuranın sədri müdafiə iştirakçılarına magistrantın müdafiə qiymətini elan edir.

Müəyyən səbəblər üzündən dissertasiya müdafiə etməmiş magistranta yalnız bir dəfə və bir ildən sonra müdafiə etmək hüququ verilə bilər.

Dissertasiyanın müdafiəsi üzrə magistrantın yekun qiyməti 51 bal və ondan yuxarı olduqda İxtisaslaşdırılmış Şuranın qərarı ilə ona magistr dərəcəsi verilir. Dissertasiya barədə İxtisaslaşdırılmış Şuranın yekun qiyməti 51 baldan aşağı olduqda, onun yenidən müdafiəsinə işdəki çatışmazlıqlar aradan qaldırılmaqla, mənfi qərar qəbul edilən gündən ən azı bir ay müddət keçdikdən sonra icazə verilir.

Əgər dissertasiya barədə yenidən mənfi qərar çıxarılarsa, onun yeni mövzuda təkrar (2 dəfədən çox olmamaqla) müdafiəsinə növbəti tədris ilinin məzunlarının dissertasiya müdafiəsi üçün müəyyən olunmuş müddətdə icazə verilir.

Dissertasiya işinin müdafiəsindən sonra magistranta magistraturanı bitirməsi ilə əlaqədar, aldığı qiymətlərə müvafiq və ixtisasa uyğun adi, yaxud fərqlənmə diplomu verilməsi haqqında qərar çıxarılır.

Beləliklə, dissertasiya işinin müdafiəsi ilə ali məktəbin magistratura pilləsində təhsil prosesi başa çatır. Dissertasiya işinin uğurlu nəticəsi və ona uyğun verilmiş diplom magistrantın bir mütəxəssis kimi yetişməsini, ixtisas biliyinə yiyələnməsini təsdiqləyir.

**Qeyd:** Bu bölmə plagiat yoxlaması zamanı müvəffəq göstəricilərə nail olan dissertasiyalara aid edilir.

.

## ƏLAVƏLƏR

***Əlavə 1***

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

____________________________________________

Magistrantın adı, atasının adı, soyadı

____________________________________________

mövzu

İxtisaslaşma kodu və adı: _________________________________

**MAGİSTR DİSSERTASİYASI**

**Elmi rəhbər:** ______________________________

Adı, atasının adı, soyadı. Elmi dərəcəsi və elmi adı

**BAKI – il**

***Əlavə 2***

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

______________________________________________

Magistrantın adı, atasının adı, soyadı

_____________________________________________

mövzu

İxtisaslaşma kodu və adı: _________________________________

Magistr dərəcəsi almaq üçün

təqdim edilmiş dissertasiyanın

**R E F E R A T I**

**Elmi rəhbər:** ______________________________

Adı, atasının adı, soyadı. Elmi dərəcəsi və elmi adı

**BAKI – il**

***Əlavə 3***

Magistr dissertasiyası Azərbaycan Universitetinin “İqtisadiyyat və idarəetmə” kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: i.e.n., dos. N.B. Böyükkişi

Rəsmi rəyçi: i.ü.f.d., dos. E.M. Yusifov

Müdafiə “______” __________ 2021-ci il tarixində saat ____-da

Azərbaycan Universiteti nəzdində magistr ixtisas və elmi dərəcəsi almaq üçün yaradılmış İxtisaslaşdırılmış Şuranın iclasında olacaqdır.

Ünvan: Bakı şəh., Nəsimi ray. Ceyhun Hacıbəyli küç. 71

Dissertasiya ilə Azərbaycan Universitetinin kitabxanasında tanış olmaq olar.

İxtisaslaşdırılmış Şuranın katibi: ______________

Magistratura və doktorantura şöbəsinin müdiri: ______________

# MAGİSTR DİSSERTASİYASININ YERİNƏ YETRİLMƏSİ MƏRHƏLƏLƏRİ VƏ MÜDDƏTLƏRİ SXEMİ

